*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 oktyabr 2015-ci il № 75 (1991) Qiyməti 25 qəpik

## General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

2015-ci ildə görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri general Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun anadan olmasının 160 illiyi tamam olur.

General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, Vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında müstəsna xidmətlər göstərmiş general Səməd bəy Mehmandarovun 160 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim general Səməd bəy Mehmandarovun 160 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

# Silahlanmaya daxil edilən növbəti "Buk-MB" zenit-raket komplekslərindən sınaq atışları keçirilib





***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyi ilə Hərbi Hava Qüvvələri hava hücumundan müdafiə qoşunlarının silahlanmasına daxil olunan növbəti "Buk-MB" zenit-raket divizionunun komplekslərindən döyüş-sınaq atışları icra edilib.***

Atışlarda Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov da iştirak edib.

Mütəxəssislər tərəfindən zenit-raket kompleksinin döyüş düzülüşü, tərkibi, təyinatı, taktiki-texniki xüsusiyyətləri, məhv etmə zonası, digər parametrləri, eləcə də döyüş atışlarının keçirilməsinə ayrılmış güc və vasitələr, şəxsi heyət barədə məlumat verilib.

Sonra praktiki atışlar yerinə yetirilib. Şərti düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində ballistik raketləri, alçaqdan uçan və aerodinamik hədəfləri imitasiya edən "Saman" tipli hədəflərin aşkarlanması, avtomatik izlənməyə götürülməsi, qərar qəbul edilməsi, onlara qarşı atəş açılması və idarə olunan zenit raketləri ilə hədəfin məhv edilməsi tapşırıqları həyata keçirilib.

Müdafiə naziri tərəfindən verilən tapşırıqlar hava hücumundan müdafiə qoşunları tərəfindən uğurla icra olunub və döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Ermənistan BMT Nizamnaməsi və beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə məhəl qoymur"

***Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 70-ci sessiyasının ümumi müzakirələrində çıxış edib.***

Nazir deyib ki, ötən 70 il ərzində Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması, dövlətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi və beynəlxalq əməkdaşlığa nail olunması kimi nəcib məqsədlər naminə universal təşkilat kimi qətiyyətli şəkildə təsis edilib. "Birləşmiş Millətlər Təşkilatının sürətlə dəyişən beynəlxalq mühitə sabit uyğunlaşma vasitəsilə cavab vermək imkanı diqqətəlayiqdir. Bu, bizə təşkilatın üzləşdiyi problemlərin öhdəsindən gələcəyinə dair əminlik verir".

E.Məmmədyarov bildirib ki, Azərbaycan terrorizm, şiddətli ekstremizm və separatçılığın bütün forma və təzahürlərini qınayır. "Dövlətlərarası münasibətləri ehtiva edən silahlı münaqişələr və ya siyasi böhranlar zamanı beynəlxalq hüquq və hüquqi nizama, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət etmək öhdəliyi kimi fundamental normalarla uyğun gəlməyən həll yolu qəbuledilməzdir".

Xarici siyasət idarəsinin rəhbəri deyib: "Azərbaycan BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanaraq BMT-nin fəaliyyətinə konkret töhfələr verməkdədir. Mənim ölkəm 15 ildən artıq müddət ərzində BMT-nin mandatı əsasında regional təşkilatlar və ya ayrı-ayrı üzv dövlətlərin komandanlığı altında Kosovo, İraq və Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak edib. Biz hazırda Azərbaycanda təlim obyektlərini də təmin etməklə BMT-nin sülhməramlı əməliyyatlarına dəstək verməkdə maraqlıyıq".

Azərbaycan insan məsələləri ölçüsündə insanlar arasında dözümlülüyü, multikulturalizmi və anlaşmanı təşviq etməyi davam etdirir. Biz 50 ölkədən olan 6000 idmançının iştirakı ilə Avropa qitəsinin tarixində ilk Avropa Oyunlarının bu il Bakı şəhərində keçirilməsindən və Azərbaycanın 2017-ci ildə İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyindən şərəf hissi keçiririk. Biz Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 2016-cı ildə Bakı şəhərində 7-ci Ümumdünya Forumunu keçirməyi planlaşdırır və bu tədbirin praktiki nəticələrinə ümid edirik.

E.Məmmədyarov deyib: "Dünən Ermənistan prezidenti ümumi müzakirələr zamanı saxtakarlıq, təhrif və yalan yığımından ibarət çıxışında reallıqda öz hökuməti tərəfindən məhəl qoyulmayan və əksinə gedilən prinsip və dəyərlər barədə mühazirə oxumağa cəhd etdi. Beynəlxalq ictimaiyyət uşaq, qadın və ahıllar da daxil olmaqla azərbaycanlı mülki şəxslərin Ermənistanın işğalçı qoşunları tərəfindən amansız qırğına məruz qalmasını, Ermənistanda ölkənin bütün siyasi elitasını qətlə yetirməklə hərbi diktaturanın yaradılmasını və saxta prezident seçkilərinə etiraz edən dinc nümayişçilərin öldürülməsini hələ də xatırlayır.

Ermənistanın müharibəyə başlaması və Azərbaycana qarşı güc tətbiq etməsi, onun ərazisinin beşdə birini, o cümlədən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonu işğal etməsi, bir milyona yaxın azərbaycanlını öz evlərindən zorla qovaraq zəbt edilmiş ərazilərdə etnik təmizləmə həyata keçirməsi və münaqişə ərzində digər ağır cinayətlər törətməsi hamıya yaxşı məlumdur. Beynəlxalq ictimaiyyət Azərbaycana qarşı gücün tətbiqini və nəticə etibarilə, onun ərazilərinin işğal edilməsini davamlı olaraq kəskin şəkildə pisləyib.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycanın ərazilərinin işğal edilməsini qınayan, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Təhlükəsizlik Şurası bu qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq edib və işğalçı qüvvələrin bütün zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da oxşar mövqe nümayiş etdiriblər.

Ermənistan beynəlxalq ictimaiyyətin mövqeyinə tam hörmətsizlik edərək və beynəlxalq hüququn ümumi qəbul olunmuş norma və prinsiplərini kobud şəkildə pozaraq özünün qeyri-real işğalçılıq iddialarında təkid etməkdə, işğal edilmiş ərazilərin fiziki, demoqrafik və mədəni adlarını dəyişdirərək və yüz minlərlə məcburi şəkildə köçürülmüş azərbaycanlının öz doğma yurdlarına qayıtmasını, bu ərazilərdəki öz əmlakına sahib olmaq hüququnu rədd edərək hazırkı status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə çıxardığı qərarda Azərbaycan ərazilərinin işğalı və azərbaycanlı məcburi köçkünlərin hüquqlarının pozulmasına görə Ermənistanın məsuliyyət daşıdığını təsbit edib. Bu qərara və beynəlxalq hüququn norma və prinsiplərinə tam şəkildə hörmətsizlik edərək, Ermənistan işğal olunmuş ərazilərin fiziki, demoqrafik və mədəni xarakterini dəyişməklə mövcud status-kvonu daha da möhkəmləndirmək istiqamətində səylərini davam etdirir və öz evlərindən zorla qovulmuş yüz minlərlə azərbaycanlının evlərinə qayıtması və mülkiyyətlərini əldə etməsi hüququnun ifadə olunmasına imkan vermir.

Bu il sentyabrın 26-da Ermənistan prezidenti Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionuna Ermənistanın bir hissəsi kimi istinad edilən bəyanat verib. Biz qəti şəkildə bu yalan və təcavüzkar bəyanatı rədd edirik. Bu bəyanat Ermənistanın BMT Nizamnaməsi və beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə məhəl qoymadığını bir daha sübut edir və Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün törədilməsinin ən yüksək səviyyədə daha bir etirafıdır. Bu, Ermənistan rəhbərliyinin sülhə konstruktiv yollarla nail olunması prosesindən nə dərəcədə uzaq olmasının göstəricisidir. Bu bəyanatda Ermənistan prezidenti hətta ölkəsinin dünyanın ən hərbiləşdirilmiş regionu olmasından fəxr etdiyini bildirir.

Bunların fonunda Ermənistanın etimad quruculuğu tədbirləri barədə möhtəkirliyi yalandan başqa bir şey deyil. Ermənistanın tarixi təhriflər əsasında qonşu dövlətlərə qarşı açıq-aşkar ərazi iddiaları, Azərbaycana qarşı təcavüzü, onun ərazilərini işğal etməsi və etnik təmizləmə aparması, münaqişənin gedişində törədilmiş cinayətlərə görə məsuliyyəti təkidlə inkarı, Azərbaycanın Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmaları arasında birbaşa təmaslara qarşı çıxması və itkin düşmüş şəxslər məsələsi üzrə ciddi əməkdaşlıqdan yayınması etimadın olmamasının əsl səbəbləridir.

Effektiv etimad quruculuğu tədbirləri üçün ilk növbədə təxirə salınmadan Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasına dair plan həyata keçirilməlidir. Qoşunların təmas xətti boyunca insidentlərin araşdırılması mexanizminin yaradılması barədə ideyalara gəlincə, qeyd etməliyik ki, bu insidentlərin baş verməsinin əsas səbəbi Ermənistan silahlı qüvvələrinin qeyri-qanuni şəkildə işğal olunmuş Azərbaycan ərazilərində mövcudluğudur. Əks təqdirdə, bu, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin prezidentlərinin də dəfələrlə qəbuledilməz və qeyri-davamlı olduğunu bəyan etdikləri status-kvonun saxlanmasına xidmət edəcək.

Dağlıq Qarabağ regionu hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi olub və olmaqda da davam edəcək. Biz heç bir zaman öz ərazilərimizin işğalı ilə barışmayacağıq. Münaqişə yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində, onun suverenliyi və ərazi bütövlüyü əsasında həll edilə bilər. Azərbaycan ərazilərinin hərbi yolla işğalı həll yolu deyil və heç vaxt Ermənistan tərəfindən arzu olunan siyasi nəticə verməyəcək. Ermənistan bu reallığı nə qədər tez dərk etsə, münaqişə o qədər tez həll edilər, regiondakı ölkələr və xalqlar əməkdaşlıq və iqtisadi inkişaf perspektivlərindən faydalanar.

Azərbaycan münaqişənin danışıqlar yolu ilə tezliklə nizamlanmasında ən maraqlı tərəfdir. Buna baxmayaraq danışıqlar yolu Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən tamamilə və qeyd-şərtsiz çıxarılması ilə nəticələnməsə, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsi ilə təsbit olunmuş hüququndan istifadə edərək beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpasını təmin etmək məcburiyyətində qalacaq.

"Azərbaycan BMT-yə üzv dövlətlərin Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən, onun suverenliyi və ərazi bütövlüyünə aid olan məsələlər üzrə dəfələrlə göstərdiyi prinsipial mövqeyi yüksək qiymətləndirir. Biz beynəlxalq ictimaiyyətin BMT Nizamnaməsinin məqsəd və prinsiplərini müdafiə etmək istiqamətində qətiyyətli mövqeyinə, eləcə də onun Azərbaycanın ədalətli mövqeyi ilə həmrəyliyinə güvənirik", - deyə nazir bildirib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## Rumıniya Prezidenti:

## BMT Dağlıq Qarabağ və digər münaqişələrə münasibətdə daha qətiyyətli olmalıdır

Rumıniyanın AGERPRES agentliyinin məlumatına görə, BMT Baş Məclisinin 70-ci sessiyasında ümumi müzakirələrdə iştirak edən Rumıniya Prezidenti Klaus Yohannis deyib ki, BMT Dağlıq Qarabağ münaqişəsinə, Gürcüstandakı və Moldovadakı münaqişələrə münasibətdə daha qətiyyətli olmalıdır.

Rumıniya dövlətinin başçısı vurğulayıb ki, beynəlxalq hüquqa əsaslanmayan hər hansı status-kvo çox davamsız olur və arabir zorakılıq hallarına da gətirib çıxarır. Bu vəziyyətdə fəaliyyətsizlik suveren və müstəqil dövlətlərin ərazisini mənimsəməyin mümkün olması və bunun tolerantlıqla qarşılanması barədə səhv təəssürat yaradır.

## GUAM çərçivəsində əməkdaşlıq region dövlətləri arasında əlaqələrin inkişafında vacib rol oynayır

***GUAM çərçivəsində əməkdaşlıq region dövlətləri arasında əlaqələrin inkişafında vacib rol oynayır. Təşkilat daxilində humanitar və iqtisadi sahədə əməkdaşlıq üçün əlverişli imkanlar var.***

Bu fikirləri Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 29-da Nyu-Yorkda ukraynalı həmkarı Pavlo Klimkin ilə görüşündə deyib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ukraynadakı vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikir mübadiləsi aparılıb.

E.Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar barədə məlumat verib. O, münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə beynəlxalq səviyyədə tanınmış sərhədlərə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət əsasında həll edilməli olduğunu qeyd edib.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri ukraynalı həmkarını ölkəmizə səfərə dəvət edib. Dəvət məmnuniyyətlə qəbul olunub.

# Müdafiə naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 1-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Müdafiə naziri beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 ildən artıqdır ki, erməni işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın doğma yurd-yuvasından didərgin düşdüyünü, qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək məqsədilə qoşunların təmas xəttinə yaxın kəndləri, dinc sakinləri atəşə tutması faktlarını qonaqların diqqətinə çatdırıb.

"Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxması ilə bağlı BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib. Ermənistan hakimiyyəti isə uzun illərdir beynəlxalq ictimaiyyətin haqlı tələbinə məhəl qoymur və mövcud "status-kvo"nu saxlamaqda maraqlıdır. Silahlı Qüvvələrimiz Ali Baş Komandanın söylədiyi kimi ərazilərimizin işğal altında saxlanılması faktı ilə heç vaxt barışmayacaq və torpaqlarımızın azad edilməsi kimi müqəddəs vəzifəni yerinə yetirəcəkdir", - deyə nazir bildirib.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Müdafiə Nazirliyinin rəhbərliyi və kollektivi görkəmli dövlət xadimi, uzun illər təhlükəsizlik sahəsində böyük xidmətləri olmuş Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının rəisi general-leytenant Ziya Yusifzadənin vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

* * *

Oktyabrın 5-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gələcək.

Səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində görüşləri planlaşdırılır.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı H.Akarın rəsmi səfəri oktyabrın 7-dək davam edəcək.

* * *

***2 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 104 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Çaylı, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Cəvahirli, Şıxlar, Novruzlu, Kəngərli, Şuraabad, Qaraqaşlı, Nəmirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 112 dəfə atəş zərbəsi endirib.

* * *

Oktyabrın 1-i və 2-də qoşunların təmas xəttində müxtəlif istiqamətlərdə Silahlı Qüvvələrimizin bölmələrinin həyata keçirdiyi qabaqlayıcı və vaxtında görülən tədbirlər nəticəsində düşmənin hərəkət fəaliyyətinin qarşısı alınıb.

Silahlı Qüvvələrimizin bölmələrinin vurduğu zərbələrlə qarşı tərəfin iki hərbi qulluqçusu məhv edilib, xeyli sayda yaralısı var.

Silahlı Qüvvələrimizin bölmələri heç bir itki vermədən bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir.

# Müdafiə naziri cəbhə bölgəsində yeni tikilən hərbi hissələrdə inşaat işlərinin gedişatını yoxlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-məişət şəraitlərinin yaxşılaşdırılması, hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə tikinti və quruculuq işləri sürətlə davam etdirilir.***





Cəbhəboyu zonada yerləşən bir neçə yeni iri hərbi hissədə görülən işlərin yekun mərhələsi ilə tanış olmaq və tikintinin keyfiyyətini yoxlamaq məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov inşa edilən obyektlərdə olub.

Qısa bir müddətdə istifadəyə veriləcək yeni hərbi şəhərciklərdə 20 min nəfərdən artıq şəxsi heyətin yerləşdirilməsi üçün tam şərait yaradılıb, o cümlədən 500-dən artıq ailəli və subay hərbi qulluqçular üçün xidməti mənzillər tikilib.

Ölkə Prezidentinin göstərişinə əsasən, cəbhə bölgəsində yeni tikilən hərbi şəhərciklərdə aparılan inşaat işlərinin gedişatını yoxlayan Müdafiə naziri hərbi obyektlərin plana uyğun, keyfiyyətli tikilməsi, müəyyən olunmuş müddətdə başa çatdırılması, həmçinin, quruculuq işlərinin aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**







## Mənzillə təmin olunmaq istəyən hazırda ehtiyatda və istefada olan hərbi qulluqçular Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinə müraciət edə bilərlər

***Gəncə şəhərində daimi mənzillə təmin olunmaq istəyən hazırda ehtiyatda və istefada olan hərbi qulluqçular 2015-ci il oktyabrın 6-dək Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinə müraciət edə bilərlər.***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrində 1992-ci ildən həqiqi hərbi xidmətə başlayıb, 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş, Maliyyə Nazirliyinin müvafiq mənzil komissiyasına təqdim edilən siyahıda qeydiyyatdan keçmiş hərbi qulluqçular mənzil üçün müraciət edə bilərlər.

*Əlaqə telefonu: (055) 675-26-56.*

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Döyüş hazırlığı*

# Batareyanın uğurları

***Artilleriya bölmələri arasında tank əleyhinə batareya döyüş xüsusiyyətlərinə görə özünəməxsus yer tutur. El arasında bunlara "dəmir yeyənlər" də deyirlər. Onların vəzifəsi düşmənin zirehli döyüş maşınlarını məhv etməkdir.***



Bu günlərdə "N" hərbi hissəsində tank əleyhinə batareyanın təlim-məşqlərinə yaxından izləmək istəyimi zabit Xalid Məmmədova bildirdim. O qeyd etdi ki, tank əleyhinə batareya döyüş hazırlığına görə həmişə fərqlənib. Ötən ilin tədris dövründə batareya döyüş hazırlığı üzrə Silahlı Qüvvələrdə birinci yeri tutub. Əsgərlər bununla kifayətlənmək fikrində deyillər və döyüş hazırlıqlarını daim artırırlar.

Bizi sözügedən bölmədə baş leytenant Emin Əhmədov qarşıladı. Zabit bildirdi ki, əsgərlər heyətlərə bölünərək ixtisas üzrə dərslərinə davam edirlər. Əsgərlərin ixtisas hazırlığı ilə təcrübəli zabitlər məşğul olurlar. Emin altı il əvvəl Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Həmin vaxtdan da zabit kimi burada hərbi xidmətə başlayıb. Əslən Tovuz rayonundan olan zabit xidməti fəaliyyəti ilə yuxarı komandanlığın etimadını qazanıb. Və buna görə də yuxarı vəzifəyə təyin edilib.

Söhbət zamanı məlum oldu ki, onun komandiri olduğu bölmənin bütün heyətləri təhkim edilmiş silahları dərindən öyrənməklə yanaşı, təlim-atış çalışmalarını da yüksək səviyyədə yerinə yetirməyə qadirdirlər. Çünki heyət üzvləri dəfələrlə atış zamanı öz məharətlərinin yüksək səviyyədə olduğunu göstəriblər.

Baş leytenant Hafiz Rəhimov isə cəbhə bölgəsində zabit kimi hərbi xidmətə başlayıb və bir ilə yaxındır ki, burada xidmət edir. Artilleriya ixtisası üzrə yetərincə bilik və bacarıqlara malik olan bu zabit daim tabeliyindəki şəxsi heyətin ixtisas hazırlığını artırmaq üçün əlindən gələni əsirgəmir. Bacarıqlı heyət üzvlərinə gəlincə hamının öz işini mükəmməl yerinə yetirdiyini bildirsə də, əsgər Fariz Yusubovun komandiri olduğu tank əleyhinə idarəolunan raket heyətinin xidmətindən söz açdı. Qeyd etdi ki, heyət üzvləri istər təlim-məşqlərdə, istərsə də xidmətin digər sahələrində özlərini bacarıqlı və intizamlı göstərirlər.



Heyət üzvlərindən Vüsal İsmayılov və Bəhram Həsənovun döyüş bacarıqları hamıya örnəkdir. Ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılan bu gəncləri bir məqsəd, bir amal birləşdirir: torpaqlarımızı işğaldan azad etmək.

Məşğələ yerində daha çox diqqətimi cəlb edən əsas amil əsgərlərin təhkim edildikləri silahlar haqqında müfəssəl biliklərinin olması və praktiki çalışmaları qüsursuz yerinə yetirmələri oldu. Biz məşğələ yerindən ayrılanda da heyətlər günün nizam qaydalarına uyğun məşqlərini davam etdirirdilər.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Cəmşid Naxçıvanski - 120*

# Sərkərdənin ömür yolu nəsillərə örnəkdir






***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə tanınmış hərb xadimi Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Tədbirdə Müdafiə Nazirliyinin Hərbi Təhsil İdarəsinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Təlim və Tədris Mərkəzinin, Azərbaycan Hərb Tarixi Muzeyinin, ictimaiyyətin nümayəndələri və kursantlar iştirak ediblər.

Tədbiri açıq elan edən lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov görkəmli sərkərdənin həyat və fəaliyyətindən danışdı: "Məşhur hərb xadiminin şərəfli adının özünə qaytarılmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olub. Ulu öndərin təşəbbüsü ilə görkəmli sərkərdənin adının əbədiləşdirilməsi üçün tədbirlər görülüb və 1971-ci ildə Bakıda yaradılan hərbi təmayüllü məktəbə Cəmşid Naxçıvanskinin adı verilib. Ümummilli liderimiz müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinin təntənəli surətdə keçirilməsi barədə sərəncam vermiş və bu mərasimdə iştirak edərək geniş nitq söyləmişdi.

Azərbaycan tarixinin ayrı-ayrı dönəmlərində xalqına, millətinə sədaqətlə xidmət etmiş, istər ordu quruculuğunda, istərsə də milli hərbi kadrların hazırlanmasında misilsiz xidmətləri ilə adını hərb tariximizə yazmış dəyərli sərkərdənin həyatı gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında da bir örnək və nümunə kimi daim qalacaqdır", - deyə polkovnik çıxışında bildirdi.

Azərbaycan Hərb Tarixi Muzeyinin baş elmi işçisi, Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Nuru Məmmədov da sərkərdənin həyat və fəaliyyətini hərbçilərimiz üçün böyük bir məktəb adlandırdı.

"General Cəmşid Naxçıvanski" sənədli filminin müəllifi, tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov, Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri Emin Həsənli və başqaları da tədbirdə çıxış etdilər.

Tədbirin bədii hissəsində leytenant Cəlal Kərimov "Azərbaycan", kursant Rəvan Qasımzadə "Yaşa Azərbaycan" mahnılarını ifa etdilər. Xalq şairi Zəlimxan Yaqubun "Ordum varsa, yurdum var", Ramiz Duyğunun "Hərbi liseyçilərik" şeirlərini kursantlar böyük həvəslə söylədilər. "Naxçıvanskilər marşı"nın sədaları altında Dövlət bayrağımız səhnəyə gətirildi.

Sonda "General Cəmşid Naxçıvanski" sənədli filmi nümayiş olundu.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Ön xətdən reportaj*

# Hər səngərimiz bir qala, hər əsgərimiz bir qəhrəmandır

***Yenə də yolumuz cəbhə bölgəsinədir. Hava isti, yolumuz isə uzundur. Hazırlaşıb redaksiyadan yola düşürük. Yolumuzu 2-ci Fəxri xiyabanın yaxınlığından salıb, Vətən uğrunda şəhid olanların məzarlarını ziyarət edirik. Milli Qəhrəman Mübariz İbrahimovun məzarı önündə dua edərkən yadıma onun müəlliməsi Bəsirə xanımın dedikləri düşür: "O heç danışmırdı, heç kimlə münasibəti yox idi. Bütün dərs boyu başını aşağı salar, nələrsə yazardı. Baxın, burda görün nə yazıb? Hər vərəqində ermənilər və üstündən xətt. Gündəliyin sonuncu vərəqində torpaqlarımızın işğalı ilə bağlı təqvimin hər tərəfini işarələyib. Qırmızı xətt çəkib üstündən. Bu o deməkdir ki, bu torpaqları geri qaytaracağam. Bütün gün idman edərdi. Sanki gündən-günə boy atardı. Elə bil Mübariz nəyəsə hazırlaşırdı. Bəlkə adını da bilərəkdən qoymuşdular - Mübariz".***





Yolumuza davam edir, əsgərlərimizlə görüşə tələsirik. Yol boyu düşünürəm ki, Vətənin keşiyində duran hər bir əsgərimiz Mübariz kimi qəhrəmandır. Nəhayət, mənzil başına çatırıq. Hərbi hissədə zabit Şükür Həmidovla görüşürük. Söhbətimiz zamanı o, sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğunun müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən olduğunu qeyd edir.

- Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Silahlı Qüvvələri hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yeni inkişaf mərhələsini yaşayır. Müasir dövrdə ölkəmizdə çox mühüm sahələr olan hərbi təhsil və hərbi səhiyyə də davamlı şəkildə inkişaf etməkdədir. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir, - deyə zabit bildirir.

Ləngimək olmaz, ön xəttə yola düşürük. Taborda təcrübəli zabit Mirpaşa Əliyevlə görüşürük. 1992-ci ildən ordu sıralarında xidmət edən zabit, hərbi xidmətinin böyük əksəriyyətini cəbhə bölgəsində keçirib. Füzuli və Ağdam uğrunda döyüşlərin iştirakçısı olan, dəfələrlə yaralanan təcrübəli zabit tabeliyində olan şəxsi heyətin daim döyüşə hazır olduğunu bildirərək deyir:

- Ali Baş Komandan İlham Əliyev ordu qarşısında mühüm tapşırıqlar qoyub və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə bu vəzifələr layiqincə yerinə yetirilir. Bu gün ordumuz düşmənə güclü zərbələr endirməyə hazırdır. Uzun müddətdir cəbhə xəttində xidmət edirəm və torpaqlarımızı azad edənə kimi xidmət etməyə hazıram. Azərbaycan Ordusunda keçən hər günüm üçün qürur duyuram və bir qarış geri çəkilməmək prinsipi ilə torpaqlarımızı azad edəcəyik.

Torpaq yollarla hərəkət edib posta çatırıq. Səliqəli əsgər yataqxanası, təmiz səngərlər, ayıq-sayıq döyüş növbətçiliyi yüksək hazırlıqdan və nizam-intizamdan xəbər verir. Döyüşçülər müxtəlif atıcı silahlarla təmin olunublar. Onlar düşmənlə üz-üzə dayanmağın məsuliyyətini dərk edir, sayıqlığı əldən vermirlər.

Döyüş postunda bizi qarşılayan taqım komandiri baş leytenant Ülvi Məmmədovun əsgər və çavuşlara qayğıkeş olması səsinin səmimi tonundan hiss olunurdu. Zabit atəşkəsin daim pozulmasından, düşmənin susdurulmasından danışır.

"Düşmənimizin nə qədər hiyləgər, qorxaq və aciz olmasını bütün dünya bilir. Tarixin müəyyən zamanlarında torpaqlarımızı necə və kimlərin hesabına işğal etdikləri, hansı yollara əl atdıqları hamıya məlumdur", - dedi taqım komandiri.

Düşünürəm ki, əsgərlərin özləri ilə söhbət etmək, onların arzularını, ürək sözlərini qələmə almaq yerinə düşər.

Əsgər Vüqar Nurkişiyev hərbi xidmətə Xaçmaz rayonundan çağırılıb. Qumbaraatan köməkçisi vəzifəsindədir. İlk vaxtlar hər şeyin ona çətin gəldiyini deyən əsgər müharibə zamanı öz vəzifəsinin öhdəsindən layiqincə gələcəyinə əmindir. "Sərhəd bölgəsində hər gün düşmənlə üz-üzə olub, hər dəfə atəşkəs pozulanda düşməni cavab atəşi ilə susdurmaq əsl hünər və şücaətdir", - dedi əsgər Vüqar Nurkişiyev.

Əsgər Məzahir Muradov isə Ağdam rayonundan hərbi xidmətə çağırılıb. 15 aydır hərbi xidmətdə olan Məzahir deyir ki, gecələr burada tez-tez atəş səsləri eşidilir. Amma bu, onları qorxutmur, əksinə, Vətənə istəklərini və düşmənə olan nifrətlərini daha da artırır.

Gənc döyüşçülər Mehdi Əsgərli, Kənan Şıxəmirov, Tural Muradov, Eldar İbrahimov və başqaları da deyirlər ki, ordu mühiti başqa dünyadır. Biz burada Vətənimizi qoruyuruq. Azərbaycan xalqı rahat olsun, bütün cəbhə xətti Azərbaycan Ordusunun tam nəzarətindədir. Hər səngərimiz bir qaladır. Mənfur düşməndən gələn hər bir təhlükəni dəf etməyə hazırıq.

Onlar komandirlərinin diqqət və qayğısından da ağızdolusu danışdılar. Özlərini səmimi bir ailədə hiss etdiklərini bildirdilər.

Vətənpərvərlik anlayışı əslində millətini sevmək və onun üçün canından keçmək deməkdir. Hər dəfə Vətən keşikçiləri ilə görüşəndə onların fədakarlıqları haqqında demək istədiklərimi sadəcə sözlə ifadə etməyə çətinlik çəkirəm. Əminəm ki, çox keçmədən bu yerlərdən qələbə reportajları hazırlamaq bizə də qismət olacaq!

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MAHMUDUNDUR**

# Gintaras Visotskas: Azərbaycanın Dağlıq Qarabağ bölgəsi hərbi əməliyyatlar nəticəsində zəbt edilib

***Litvanın www.slaptai.lt portalında bu İnternet resursunun rəhbəri, tanınmış jurnalist Gintaras Visotskasın "Ermənistanın qarşısında yaltaqlanmağa nə vaxt son qoyacağıq?" sərlövhəli məqaləsi dərc edilib. Litvalı jurnalist sual edir: Ən böyük dövlətləri belə tənqid etməkdən çəkinməyən Litva Ermənistana münasibətdə tənqiddən nə üçün çəkinir?***

Mürəkkəb Ermənistan-Azərbaycan münasibətlərini illər boyu diqqətlə izləyən müəllif səmimiyyətlə soruşur: Azərbaycanın əzəli torpaqlarını işğal etmiş Ermənistanın hərəkətləri nə üçün hiddət doğurmur, amma Avropa ilə səmimi dostluğa çalışan, beynəlxalq humanitar forumlar, "Eurovision" mahnı müsabiqəsi və Birinci Avropa Oyunlarını keçirən Azərbaycana şübhəli münasibət təzahür edir?

Litvalı jurnalist qeyd edir ki, bu gün - suriyalı, iraqlı və əfqanıstanlı qaçqınlar mövzusu bütün Avropa üçün aktual olduğu bir vaxtda Azərbaycanın təcrübəsi bu baxımdan dəyərlidir. Erməni silahlıları bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından qovanda azərbaycanlılar məğrurluğunu qoruyub saxladılar, heç kəsə şikayət etmədilər, heç kəsdən kömək gözləmədilər. Onlar yaranmış çətinliklərin öhdəsindən özləri gəldilər, həm öz qaçqınlarının qeydinə qaldılar, həm də Çeçenistandan və Özbəkistandan 10 minlərlə qaçqını qəbul etdilər.

G.Visotskas yazır ki, rəsmi Bakı italyan, yunan, alman, fransız siyasətçilərinə çox dəyərli məsləhətlər verə bilərdi, lakin azərbaycanlı qaçqınlar mövzusu Avropa üçün xoşagəlməz mövzudur. Çünki bu halda Avropa etiraf etməli olardı ki, Dağlıq Qarabağ və ona bitişik 7 rayon - ümumilikdə Azərbaycan ərazisinin 20 faizi hərbi əməliyyatlar, soyqırımı və digər beynəlxalq hərbi cinayətlər nəticəsində işğal edilib.

Jurnalist qeyd edir ki, insan hüquqları mövzusu da aktualdır. Avropa Parlamentinin üzvü Pyatras Auştryaviçyus bu il iyunun 5-də 15min.lt portalında "İnsan hüquqlarının tapdalandığı yerdə "təmiz oyun" haqqında" sərlövhəli məqalə dərc edib. Litvalı siyasətçi Azərbaycanda Avropa Oyunlarının keçirilməsinin qeyri-mümkün olduğunu sübut etməyə çalışır, çünki onun sözlərinə görə bu ölkədə insan hüquqlarına riayət edilmir. G.Visotskas oxucuların diqqətinə çatdırır ki, Avropa İttifaqının hətta ən demokratik dövlətində, elə Litvanın özündə də ideal qayda yoxdur. Lakin dünyada heç bir bəsirətli siyasətçi Litvanı "insan hüquqlarının tapdanmasında" ittiham etmir.

G.Visotskas təəccüblə soruşur: Başa düşmək olmur, biz avropalılar Azərbaycandan nə istəyirik, bu qərəzliliyin mənbəyi nədir? Məgər beynəlxalq idman oyunları, beynəlxalq humanitar forumlar təşkil edən, öz ərazisində xarici hərbi bazalar olmayan Azərbaycan qonşularına hücum edən Ermənistandan pisdirmi? Avropa Parlamentinin üzvü P.Auştryaviçyus Azərbaycanı tənqid edəndə və Ermənistanı tənqid etməyəndə çoxlu suallar doğur. Soruşmaq istərdik, həm Litvada, həm də Avropa İttifaqının üzvü olan digər dövlətlərdə Ermənistana rəğbət bəsləyənlər bu yaxınlarda Azərbaycana qaçmış və orada siyasi sığınacaq istəmiş erməni Vano Martirosyanın bəyanatları barədə nə fikirləşirlər? Azərbaycanda demokratiyanın vəziyyətindən daim narazılıq bildirən insan hüquqlarının müdafiəçiləri Ermənistanda əslində nələr baş verdiyinə nə vaxt maraq göstərəcəklər?

Litvalı jurnalist məqaləsinin sonunda yazır ki, əgər Ermənistanda demokratiya bir qədər çox olsaydı, onda Avropadakı erməni lobbisi üçün xoşagəlməz olan daha bir həqiqət üzə çıxardı - hamı bilərdi ki, məhz Azərbaycanda yaşamaq istəyən ermənilər də var.

**AZƏRTAC**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-ın "Ronald Reyqan" təyyarədaşıyan gəmisi Yaponiyadakı bazasına gəlib



ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus "Ronald Reyqan" müasir təyyarədaşıyan gəmisi oktyabrın 1-də Tokionun cənubunda yerləşən Yokosuka bazasına gəlib.

Bununla əlaqədar Yaponiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir: "Yaponiya hökuməti hesab edir ki, ABŞ Hərbi Dəniz Qüvvələrinin iştirakı Yaponiyada təhlükəsizliyin, regionda isə sülhün və sabitliyin qorunmasına böyük töhfə verir. Yaponiya hökuməti, həmçinin qeyd edir ki, "Ronald Reyqan" təyyarədaşıyan gəmisi 2011-ci ilin martında baş vermiş zəlzələ zamanı xilasetmə tədbirlərində iştirak edib və onun ölkəyə gəlişini salamlayır".

97 min ton su tutumuna malik olan "Ronald Reyqan" dünyanın ən böyük hərbi gəmilərindən biridir. Onun uzunluğu 333 metrdir. Malik olduğu iki atom reaktoru gəmiyə saatda 56 kilometr sürətlə hərəkət etmək imkanı yaradır. Bu hərbi gəmi göyərtəsində 90 təyyarə və helikopter daşımaq qabiliyyətinə malikdir. Gəmidə 5600 hərbi qulluqçu və heyət üzvü xidmət edir.

## "Konotori-5" yapon kosmik yük gəmisi missiyasını başa çatdırıb



"Konotori-5" yapon pilotsuz kosmik yük gəmisi Beynəlxalq Kosmik Stansiyaya (BKS) ərzaq və avadanlığın çatdırılması üzrə 42 günlük missiyasını başa vurub və odlu qövs cızaraq Yerin atmosferinə daxil olub.

Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyinin (JAXA) yaydığı məlumata əsasən, "Konotori-5" yük gəmisi sentyabrın 30-da səhər saatlarında uçuş proqramına uyğun olaraq Sakit okeanın cənubunda atmosferin yuxarı qatlarında yanıb. Kosmik gəmi bir gün əvvəl BKS-dən ayrılaraq eniş trayektoriyasına daxil olub.

## Federasiya Şurası xarici ölkədə Rusiya qoşunlarından istifadə olunmasına icazə verib



Rusiya Federal Məclisinin Federasiya Şurası ölkə Prezidentinə Silahlı Qüvvələrdən Suriyada istifadə olunmasına icazə verib. Bu barədə RF Prezidenti Administrasiyasının başçısı Sergey İvanov jurnalistlərə məlumat verib.

O dəqiqləşdirib ki, Federasiya Şurasında müzakirə edilən Rusiya Silahlı Qüvvələrindən xarici ölkədə istifadə olunması məsələsi Suriyaya aiddir. S.İvanov deyib: "Rusiya Suriyada ancaq aviasiyadan istifadə edəcək, Suriya Prezidenti Bəşər Əsədin xahişi ilə özünü "İraq Şam İslam Dövləti" adlandıran terrorçu qruplaşmaya qarşı hərəkət edəcək". Onun sözlərinə görə, Suriya Ərəb Respublikasının Prezidenti Bəşər Əsəd hərbi yardım göstərmək xahişi ilə Rusiya rəhbərliyinə müraciət edib.

## Ukraynada üzən zirehli avtomobil hazırlanıb



Ukrayna zavodu "Triton-01" yeni zirehli avtomobili təqdim edib. Bu zirehli avtomobil ölkədə yerli analoqları üstələyir.

Yeni zirehli avtomobilin üstünlüklərindən biri ondan ibarətdir ki, maşın üzə bilir. Bunun üçün onun arxa hissəsinə avar vinti quraşdırılıb. Zirehli avtomobilin maksimum sürəti suda 10 km/saat, yollarda isə 110 km/saata qədərdir.

Maşının ekipajı üç nəfərdən ibarətdir. Desant hissəsində isə səkkiz nəfər yerləşə bilər.

Xatırladaq ki, ukraynalılar Mi-2 çoxfunksiyalı sovet vertolyotu əsasında özlərinin yerli Mi-2MSB-V döyüş vertolyotunu hazırlayıblar. Bu hərbi maşın da Ukrayna istehsalı olan silahla təchiz edilib.

## Minadakı izdihamda ölən iranlı zəvvarların sayı 464-ə çatıb



Minada baş verən izdihamda ölən iranlı zəvvarların sayı 464 nəfərə çatıb.

Bu barədə İranın Həcc və Ziyarət Təşkilatının oktyabrın 1-də yaydığı açıqlamada məlumat verilir. Açıqlamada bildirilib ki, həlak olanların cəsədləri İrana gətiriləcək.

Təşkilatın sədri Səid Övhədi əvvəlki açıqlamasında ölənlərin sayının 239 olduğunu bildirmişdi.

İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin verdiyi məlumata görə isə, 25 yaralı Tehrandakı Mühibb xəstəxanasında yerləşdirilib. Cəsədlərin və yaralıların İrana gətirilməsi ilə yanaşı, itkin düşən iranlı zəvvarların şəxsiyyətlərinin dəqiqləşdirilməsi də davam etdirilir.

## Ermənistanda hər il 1000-ə yaxın müəllim işdən çıxarılır



Təhsil Texnologiyaları üzrə Milli Mərkəzin məlumatına görə, Ermənistanda hər il ümumtəhsil müəssisələrində çalışan 1000-ə yaxın müəllim işdən çıxarılır.

Ermənistanda müəllimlərin 80 faizini qadınlar təşkil edir. Dövlət məktəblərində işləyən müəllimlərin sayı 2012-2013-cü tədris ilində 39 min 556 nəfər, 2013-2014-cü tədris ilində 38 min 483 nəfər, 2014-2015-ci tədris ilində isə 37 min 560 nəfər olub.

Buna səbəb bütün sahələrdə iflasa uğrayan Ermənistanda yaranmış gərgin ictimai-siyasi vəziyyət, iqtisadi və demoqrafik böhrandır.

**AZƏRTAC-ın materialları əsasında**




# Dünyanı dəyişdirən xəfiyyə

## Sovet İttifaqı Qəhrəmanı R.Zorgenin anadan olmasının 120 illiyinə həsr olunmuş tədbir keçirilib

***Bu günlərdə Azərbaycan Hərb Tarixi muzeyində dünya şöhrətli əfsanəvi kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin anadan olmasının 120 illik yubileyi təntənə ilə qeyd edilib. Yubiley tədbiri ənənəvi olaraq ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin oxunması ilə başlayıb.***

Müdafiə Nazirliyinin, ali hərbi məktəblərin, Hərbi Akademiyanın, veteran təşkilatlarının, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin, şəhər muzeylərinin və digər qurumların nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq "Əfsanəvi kəşfiyyatçı Rixard Zorgenin həyatı və hərbi fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib. Bəşəriyyət tarixində insanlıq üçün fəlakətlərlə dolu iki dünya müharibəsinin baş verdiyini, imperiyaların süqut etməsilə dünyanın siyasi xəritəsinin dəyişdiyini diqqətə çatdıran natiq alman əsilli, bakılı Rixard Adolfoviç Zorgenin həyat və fəaliyyətinin maraqlı məqamlarından danışıb. "Müharibələr əleyhinə, insanlığın xilası naminə daim mübarizələrdə olan və sonda bu xoş niyyət üçün canını qurban verən qorxmaz kəşfiyyatçı R.Zorge 1895-ci il oktyabrın 4-də Bakı şəhərinin Sabunçu qəsəbəsində alman ailəsində dünyaya göz açmışdı. Onun atası XX əsrin əvvəllərində Bakıya neft mədənlərində mühəndis kimi işləməyə gəlmiş almanlardan idi. R.Zorge 3 yaşında ikən 1898-ci ildə ailəsilə birlikdə Almaniyaya qayıdır. 1914-cü ildə 19 yaşında olarkən alman ordusunda xidmətə çağırılan Rixard I Dünya müharibəsinin iştirakçısı olur. 1916-cı ilin martında döyüşlərdə ağır yaralanan Zorgenin 3 barmağı kəsilir və hər iki ayağı sınır. Döyüşdə aldığı həmin zədələrdən həyatının sonuna qədər əziyyət çəkir. Cəsur hərbçi müharibədə göstərdiyi şücaətə görə kapral rütbəsinə yüksəlir və Almaniya İmperiyasının II dərəcəli Dəmir Xaç medalına layiq görülür. Gənc yaşlarında rastlaşdığı qanlı, dəhşətli hadisələr onun taleyində dərin iz buraxır. Rixard xatirələrində yazırdı ki, insan kimi həyatda ən çox nifrət etdiyi bir şey var idisə, o da müharibə idi", - deyə çıxışına davam edən muzeyin rəisi digər maraqlı məlumatları da tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, Sovet hərbi kəşfiyyatının rəhbəri Yan Berzinlə tanışlığı Rixardın həyatını tamamilə dəyişdirir. Sovet imperiyasının Uzaq Şərqdə maraqlarının təmin edilməsi üçün hərbi kəşfiyyata cəlb olunan Rixard 1929-cu ildə Çinə göndərilir. 1931-ci il sentyabrın 18-də Yaponiyanın Mancuriyanı işğal etməsi haqda ilk məlumatı da "mərkəz"ə məhz R.Zorge çatdırır. Onun fəaliyyət göstərdiyi təşkilatın ən ümdə cəhəti onda idi ki, informasiyalar dəqiq, yoxlanıldıqdan sonra "mərkəz"ə ötürülürdü. Yaponiyadakı fəaliyyəti dövründə Zorge Moskvaya saysız-hesabsız qiymətli məlumatlar göndərmiş, hətta 1940-cı ilin iyulunda SSRİ-yə qarşı ildırım sürətli müharibənin başlanması ilə bağlı xəbəri də tam dəqiqliyi ilə məhz o vermişdi. Lakin Moskvadan bu informasiyalara ciddi yanaşılmamışdı. Almaniyada, Çində, Yaponiyada və Avropanın bir sıra ölkələrində böyük agentura şəbəkəsinə nəzarət edən R.Zorge uzun müddət izlənildikdən sonra 1941-ci ilin mayında həbs edilir və 1944-cü il noyabrın 7-də edam olunur. Bu gün cəsarətli kəşfiyyatçının məzarı Tokio yaxınlığındakı Talqa qəbiristanlığındadır.



Muzeyin hərb tarixi şöbəsinin rəisi Gülşən Hüseynovanın "Rixard Zorge - alim, jurnalist, yoxsa kəşfiyyatçı?" adlı çıxışı tədbir iştirakçılarında böyük maraq doğurub. O, R.Zorgenin təhsilini, siyasi mənsubiyyətini və fəaliyyətini önə çəkərək qeyd edib ki, 1915-ci ildə Berlin Universitetinin tibb fakültəsinə daxil olan Rixard sonradan öz ixtisasını dəyişərək siyasi iqtisad fakültəsinə keçir. Təhsil illərində onun diqqətini daha çox Marksın, Engelsin, Hegelin və başqa Avropa filosoflarının əsərləri cəlb edir. Zorge 1917-1919-cu illərdə Müstəqil Sosial Demokrat, 1919-cu ildən Alman Kommunist Partiyasının üzvü seçilir, pedaqogika və jurnalistika sahələrində də fəaliyyət göstərir. 1920-1923-cü illərdə Almaniyanın Zolingen şəhərində partiya qəzetinin redaktoru işləyən Rixard ölkəsində daxili vəziyyətin dəyişdiyini hiss edir və SSRİ-yə gələrək müxtəlif idarələrdə çalışır. SSRİ vətəndaşlığını qəbul edən Rixard Moskvada yaşadığı dönəmlərdə bir neçə elmi əsər yazaraq nəşr etdirir. O sonralar xatirələrini qələmə alarkən "Əgər mən sülhün hökm sürdüyü bir cəmiyyətdə yaşasaydım, heç şübhəsiz, alim olar və yəqin ki, heç bir zaman kəşfiyyatçı sənətini seçməzdim", - deyə təəssüfləndiyini söyləmişdi.

Vətəndaşı olduğu dövlətə - SSRİ-yə qarşı hazırlanan ən dəhşətli təhlükə haqqında məlumat verən R.Zorgeyə biganə münasibət 20 ilə yaxın davam edib. "Gizli cəbhə"nin qorxubilməz döyüşçüsü 1964-cü il noyabrın 5-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Sonra tədbir Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi, ehtiyatda olan polkovnik-leytenant Elçin Umudovun maraqlı faktlara söykənən çıxışı ilə davam edib. O qeyd edib ki, Rixard Zorgenin xatirəsinin əziz tutulduğu ölkələrdən biri də Azərbaycandır. "Onun xatirələrində Azərbaycanı xatırlaması buna misaldır. Uşaq yaşlarından atasının işi ilə əlaqədar Bakıdan Berlinə köçən Zorge bir daha Azərbaycanı ziyarət edə bilməyib". E.Umudov çıxışını dünyanın tanınmış ictimai siyasi və hərbi xadimlərinin R.Zorge barədə dedikləri fikirləriylə bitirib. "Cəsurluğun parlaq nümunəsi və böyük uğuru" - Duqlas Makartur, "Qüsursuz görülmüş bir iş" - Kim Filbi, "Zorge məncə tarixin ən çətin tapşırıqlarını yerinə yetirmiş xəfiyyədir" - Yan Fleminq, "Dünyanı dəyişdirən xəfiyyə" - Lans Morron.

Ölkəmizdə R.Zorgenin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə qəhrəman kəşfiyyatçının abidəsinin ucaldılması barədə qərar imzalamışdı. Hazırda Bakıda onun adını daşıyan küçə və park var. Anadan olduğu evin yaxınlığında yerləşən 90 saylı məktəbə R.Zorgenin adı verilib.

Tədbir Sabunçu rayonundakı 90 saylı məktəbin yuxarı sinif şagirdlərinin təşkil etdiyi ədəbi-bədii kompozisiya və konsert proqramı ilə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**



## "Bayrağımız - milli qürurumuzdur"

### Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı

# müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat
II yer - 150 manat
III yer - 100 manat

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan çempionu "Qarabağ" UEFA Avropa Liqası yarışlarının qrup mərhələsində ilk qələbəsini qazanıb



Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsində mübarizə aparan Azərbaycan çempionu "Qarabağ" oktyabrın 1-də ikinci oyununa çıxıb.

Ağdam təmsilçisi Belçikanın "Anderlext" komandasını Tofiq Bəhramov adına Respublika stadionunda qəbul edib. Qarşılıqlı hücumlar şəraitində keçən oyunun 36-cı dəqiqəsində "Qarabağ"ın futbolçusu Riçard Almeyda 25 metrlik məsafədən rəqib qapısını dəqiq nişan alaraq hesabı açıb - 1:0.

Beləliklə, avstriyalı baş hakim Oliver Draçtanın idarə etdiyi oyun "Qarabağ"ın minimal üstünlüyü ilə başa çatıb - 1:0.

"Qarabağ"ın yer aldığı "J" qrupunda digər oyun Fransada yerli "Monako" komandası ilə İngiltərənin "Tottenhem" klubu arasında keçirilib. Görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

## Azərbaycan idmançıları çimərlik voleybolu üzrə beynəlxalq turnirin qalibi olublar



Batumidə çimərlik voleybolu üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə Azərbaycan voleybolçuları ilə yanaşı, Türkiyə, Gürcüstan və Ermənistandan olan idmançılar da birincilik uğrunda mübarizə aparıblar.

Kəmalə Əsgərova - Viktoriya Ağakişiyevadan ibarət cütlüyümüz bütün görüşlərdə qalib gələrək turnirin qızıl medalına sahib olub.

## Taekvondo üzrə gənclərdən ibarət milli komandamız Latviyada keçiriləcək Avropa birinciliyində iştirak edəcək




Oktyabrın 22-dən 25-dək Latviyanın Dauqavpils şəhərində Avropa Taekvondo Birliyi tərəfindən gənclər arasında 20-ci Avropa birinciliyi təşkil ediləcək.

Taekvondo üzrə gənclərdən ibarət Azərbaycan milli komandasının üzvləri də Latviyada keçiriləcək beynəlxalq yarışda iştirak edəcəklər.

Milli komandamız Avropa birinciliyindən əvvəl təlim-məşqlərə oktyabrın 1-dən start verib. Məşqlər gün ərzində iki dəfə olmaqla Azərbaycan Taekvondo Federasiyasının məşq zalında davam etdiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Əliyev Nurlan Qabil oğluna 2013-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Mustafayev Kənan Nizami oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Dadaşov Daşqın İbrahim oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rüstəmov Mehran Ağarəhim oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

## "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

# Birincilikdə yüngül atletlər yarışdılar

***Məlum olduğu kimi, Azərbaycan Silahlı Qüvvələrində şəxsi heyətin fiziki hazırlığına və idmana xüsusi diqqət yetirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizini əsas tuaraq hərbi qulluqçuların fiziki hazırlığının artırılmasına da yüksək tələblə yanaşır. Yəni, Silahlı Qüvvələrimizdə hərbi qulluqçular güclü, çevik, qarşıya qoyulmuş hərbi tapşırıqları yerinə yetirmək üçün hazır olmalıdırlar. Bu məqsədlə hərbi hissə və bölmələrdə döyüşçülərin fiziki hazırlığını artırmaq üçün planlı şəkildə müxtəlif tədbirlər, idman yarışları, o cümlədən Silahlı Qüvvələr birincilikləri keçirilir.***





Sentyabrın 27-də Silahlı Qüvvələrin növbəti birinciliyinə start verildi. Bu dəfə ayrı-ayrı qoşun növlərini və hərbi hissələri təmsil edən yüngül atletlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində toplaşmışdı. Hərbçi idmançılar yüngül atletikanın beş növü üzrə qalibləri müəyyən etməli idilər. Onlar 100, 3000 metr məsafəyə qaçış, hündürlüyə və uzunluğa tullanma, estafet növləri üzrə yarışırdılar. Birincilikdə müxtəlif hərbi hissələrdən 10 komanda iştirak edirdi.

Bu birinciliyi fərqləndirən bir özəllik isə ondan ibarət idi ki, qələbə uğrunda qadın idmançılar da mübarizə aparırdılar. Onlar ilk birinciliklərində 100 və 3000 metr məsafəyə qaçış yarışında iştirak edirdilər.

100 metr məsafəyə qaçış yarışında maraqlı idman mübarizəsi şəraitində kişi idmançılar qələbə uğrunda start xəttinə çıxdılar. Təbii ki, yarışa qatılanların hamısı birinciliyin mükafatını qazanmaq istəyirdilər.

"Bərdə" komandasını təmsil edən əsgər Vüsal Əhmədov finiş xəttini hamıdan tez keçərək birinciliyin qızıl medalına sahib çıxdı. Hərbi Hava Qüvvələrinin idmançısı əsgər Vasif Xəlilov ikinci, "şəmkirli" əsgər Cahangir Alımərdanov isə üçüncü nəticə göstərdi.

İlk dəfə Silahlı Qüvvələrdə start xəttinə çıxan qadın idmançılar da mübarizə əzmi nümayiş etdirdilər. Nəticədə "Şəmkir" komandasının üzvü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ülkər Sadıqova birinci, Hərbi Hava Qüvvələrinin idmançısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Günel Ağayarova ikinci, "Topçular" komandasından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Arzu Aydınlı isə üçüncü oldu.

Kişi hərbi qulluqçuların 3000 metr məsafəyə yarışında birinci yerə yenə "Şəmkir" komandasının idmançısı layiq görüldü. Əsgər Əli Bayramov bu növdə hamıdan üstün oldu. Hərbi Hava Qüvvələrinin idmançısı gizir Fəqət Quliyev birinciliyin gümüş, "bərdəli" İxtiyar İlqaroğlu isə bürünc medalına sahib çıxdı.

Bu məsafəyə qadınların yarışında Hərbi Hava Qüvvələrinin idmançısı qalib gəldi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Firəngiz Kərimova fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. "Şəmkir" komandasının üzvü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Səadət Süleymanova ikinci, "Bərdə" komandasının üzvü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Raifə Musayeva isə üçüncü yeri tutdu.

Hündürlüyə tullanma yarışları da idmançılar və mütəxəssislər tərəfindən maraqla gözlənirdi. Bu növdə də əsas mübarizə artıq məlum komandaların idmançıları arasında getdi. "Şəmkir" komandasının üzvü əsgər Ələs Zeynalov hamıdan daha yüksəyə tullandı və birinciliyin qızıl medalını qazandı. "Bərdəli" əsgər Sərvər Şahverdiyev ikinci, Hərbi Hava Qüvvələrinin idmançısı əsgər İlkin Məmmədov isə üçüncü nəticə göstərdi.

Uzunluğa tullanma növündə "Şəmkir" komandası yarışa yenə hamıdan daha yaxşı hazırlaşdığını göstərdi. Bu komandanın idmançısı əsgər Rəhim Rüstəmov bütün rəqiblərindən uzağa tullandı və birinciliyin qalibi adını qazandı. "Beyləqan" komandasının üzvü əsgər Mahir Əliyev birinciliyin gümüş, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsi kursant Kamran Hüseynov isə bürünc medala layiq görüldü.

Birinciliyin maraqlı idman növlərindən biri də estafet qaçışı idi. Bu yarışda hər komandadan dörd idmançı estafet çubuğunu bir-birinə ötürərək 400 metr məsafəni qət etməli idi. Birinciliyə daha yaxşı hazırlaşmış "Şəmkir" idmançıları estafet qaçışında da bütün rəqiblərini geridə qoydular. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları finiş xəttini ikinci keçərək gümüş medal qazandılar. "Bərdə" komandasının üzvləri isə üçüncü yeri özlərinə təmin etdilər.

Birinciliyin yekununa əsasən xallar hesablanarkən məlum oldu ki, "Şəmkir" komandası ümumilikdə birinciliyin qalibidir. Qeyd etmək lazımdır ki, komanda birinciliyə mayor Qoşqar Əliyevin rəhbərliyilə hazırlaşır və favorit hesab edilir. Öz vəzifəsinə yetərincə məsuliyyətlə yanaşan zabitin yetirmələri 2014-cü ilin nəticələrinə görə də birinci olmuşdu. Görünür, bu ildə də onun komandası ilin yekunlarına görə ən yüksək yerlərə iddialıdır.

Komanda hesabında ikinci yeri son zamanlar nəticələrini xeyli artırmış Hərbi Hava Qüvvələrinin idmançıları tutdular. Komandanı yüngül atletika birinciliyinə mayor Elvin Məmiyev hazırlayıb.

Birinciliyin nəticələrinə görə ümumi hesabda üçüncü yeri "Bərdə" komandası tutdu. Komandanı yarışa hazırlamış mayor Hamlet Nəbiyevin fəaliyyəti barədə də xoş sözlər söyləməyə dəyər. Bu komanda da həmişə Silahlı Qüvvələr birinciliklərində yüksək yerlər uğrunda mübarizə aparıb və fəxri yerlər tutub.

Kiçik komandalar arasında Təlim və Tədris Mərkəzinin idmançıları fərqlənməyi bacardılar.

- Birincilik maraqlı idman mübarizəsi şəraitində keçdi, - Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev yekunla əlaqədar dedi:

- Bütün idmançılar qələbə uğrunda mübarizə aparırdı. Amma daha güclülər qalib gələrək birinciliyin mükafatlarını özlərinə təmin etdilər. Komandalardan daha yaxşı hazırlaşanlar həm fərdi hesabda, həm də ümumi hesabda fərqləndilər. Digər komandalar da nümunə götürməli və yüksək yerlər tutmağa çalışmalıdırlar. Başlıca məqsəd isə Silahlı Qüvvələrimizdə fiziki hazırlığın səviyyəsini qaldırmaq və hərbi idman növlərini inkişaf etdirməkdir.

Sentyabrın 30-da başa çatmış birinciliyin yekununda fərqlənmiş idmançı və komandalara keçici kubok, medal, fəxri fərman və diplomlar təqdim edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 800
Nüsxə 4710